Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 25-30**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 25-30**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 25-30**

UOT 374.1

S.K.Almuradova
pedaqogika üzrə fəlsəfə doktoru
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli 98

MUSİQİ MƏŞĞƏLƏLƏRİ TƏLİMİN ƏSAS TƏŞKİLİ FORMASI KİMİ

Açar sözlər: *musiqi məşğələsi, təlim, təhsil, tərbiyə, qrup məşğələlər, fərdi məşğələlər, mövzulu məşğələlər, kompleksli məşğələlər, yaradıcılıq qabiliyyətləri, ritmik hərəkət*

Məqalədə əsas təşkilati təhsil forması kimi musiqi dərslərinə diqqət yetirilir, həmçinin müəllif musiqi dərslərinin növünü qeyd edir.

Musiqi dərsləri zamanı musiqi-estetik və tərbiyə-təhsil vəzifələrinin həllində əlaqə qurulur. Aktiv musiqi fəaliyyəti zamanı uşaqlar lazımi bilikləri öyrənir, bacarıq və qabiliyyətlər əldə edirlər.

Uşaqların sayına əsasən, dərsləri aşağıdakı növlərə bölmək olar: frontal, qrup, fərdi, birləşmiş. Məqalənin müəllifinin fikrincə, məşğələlərin məzmununa görə, onlar tematik və mürəkkəb ola bilərlər.

Nəticədə, müəllif belə qənaətə gəlir ki, ümumi musiqi dərslərinin birləşməsi bütün uşaqların və hər bir uşaqın ayrılıqda bilik və bacarıqlarının formalaşması və mənimsənilməsi üçün optimal şərait yaradır və bununla da uşaqların musiqi və estetik inkişafını təmin edir.

С.К.Альмурадова

УРОКИ МУЗЫКИ КАК ОСНОВНАЯ ФОРМА ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ

Ключевые слова: *музыкальное образование, обучение, воспитание, групповые упражнения, индивидуальные упражнения, предметы, комплексные упражнения, творческие способности, ритмичные движения*

В статье освящены музыкальные занятия как основная организационная форма обучения, а так же автор указал вид музыкальных занятий.

На музыкальных занятиях осуществляется взаимосвязь в решении музыкально - эстетических и воспитательной - образовательных задач. В ходе активной музыкальной деятельности дети усваивают необходимые знания, приобретают навыки и умения.

В зависимости от состава детей занятия принято подразделять на

следующие виды: фронтальные, групповые, индивидуальные, объединенные. По мнению автора статьи в зависимости от содержания занятий они могут быть тематическими и комплексными.

В итоге автор приходит к выводу, что совокупность всех видов музыкальных занятий создает условия для оптимального усвоения всеми детьми и каждом ребенком в отдельности знаний и формирования навыков, обеспечивая тем самым всесторонни музыкально-эстетическое развитие детей.

S.K.Almuradova

THE MAIN FORM OF MUSIC IS THE BASIC ORGANIZATION OF TEACHING

Key words: *music education, training, education, upbringing, group exercises, individual exercises, theme workshops, complex exercises, creative abilities, rhythmic motion*

The article focuses on music lessons as the main organizational form of education, as well as the author indicated the type of music lessons.

During music lessons, the interrelation is carried out in solving musical-aesthetic and educational tasks. In the course of active musical lessons, children learn the necessary knowledge, acquire skills and abilities.

Depending on the guantity of the children, classes can be divided into the following types: frontal, group, individual, combined. According to the author of the article, depending on the content of classes, they can be thematic and complex.

As a result, the author comes to the conclusion that the combination of all types of music classes creates conditions for the optimal formation of skills and perceive of the knowledge by all of the children and each child individually, thereby ensuring a comprehensive musical and aesthetic development of children.

Musiqi məşğələləri məktəbəqədər yaşlıların əsas təlim forması kimi qəbul edilmişdir. Musiqi məşğələlərində musiqi-estetik və tərbiyə problemləri qarşılıqlı surətdə həll edilir. Fəal musiqi fəaliyyətində uşaqlar bilik, bacarıq və vərdişlər əldə edirlər ki, məhz sonradan mahnıların ifası, musiqili-ritmik hərəkətlər, uşaq musiqi alətlərindən çalmaq kimi yaradıcılıq proseslərində onlardan istifadə edirlər. Bütün bunlar uşaqların musiqi zövqünün, musiqi və yaradıcılıq qabiliyyətlərinin, musiqiyə məhəbbətin və şəxsiyyətin mənəvi-estetik keyfiyyətlərinin formalaşmasına öz müsbət təsirini göstərir.

Uşaqlar bu məşğələlərdə frontal (yaş qruplarının birgə birləşməsilə), 4-7 nəfərdən ibarət qrupla, fərdi şəkildə iştirak edə bilərlər. Məşğələlərin məzmununa uyğun olaraq bu məşğələlər mövzulu (yuxarı yaş qrupunda) və kompleks şəkildə

ola bilər.

Göstərilən hər bir musiqi məşğələlərinin növü musiqi tərbiyəsinin ümumi vəzifələrinə cavab verir və özünə məxsus xüsusiyyətlərə malikdir.

Frontal musiqi məşğələlərinin məzmunu "Uşaq bağçalarının tərbiyə proqramı"nda öz əksini tapmışdır. Frontal musiqi məşğələləri uşaqların - musiqi dinləmə, mahnı oxuma, musiqili-ritmik hərəkət kimi musiqi fəaliyyətlərini özündə birləşdirir.

Müxtəlif növ musiqi məşğələlərindən istifadə etməmişdən uşaqların orqanizminin qabiliyyətlərini və sinir sisteminin vəziyyəti nəzərə alınmalıdır.

Uşaqların iş qabiliyyətlərinin səviyyəsi diqqətin, qavramanın, marağın emosionallığını saxlanılmasının saxlanılma müddətilə müəyyən edilir.

Yaxşı olar ki, frontal musiqi məşğələlərində musiqi dinləmə, mahnı oxuma, musiqili-ritmik hərəkətlər vaxt aşırı yerlərini dəyişsinlər.

Məktəbəqədər uşaqlar uzun müddət diqqətli ola bilmirlər və bir müddətdən sonra onların diqqətləri yayınır. Ona görə də müəllim musiqi məşğələlərinin növlərini elə tənzimləməlidir ki, bir növdən digər növə keçid zamanı onların maraqları sönməsin. Qeyd etmək lazımdır ki, marağın yaranması musiqi əsərlərinin dəyişdirilməsindən də asılıdır. Yəni uşaq yeni musiqi fəaliyyətinin dəyişdirilməsinə imkan tapır. Bu isə öz növbəsində uşaqlarda yeni musiqi fəaliyyəti növünə marağın artmasına və qavrama prosesinin daha asan baş verməsinə səbəb olur.

Mahnı oxuyarkən uşaqlar aşağıdakı müxtəlif tapşırıqları yerinə yetirməlidirlər: melodiyanı düzgün oxumalı, mahnı oxumağa vaxtında başlamalı, öz oxumasını müşayiətə uyğunlaşdırmalı, vaxtında mahnının bitiriməsi, müşayiətli və müşayiətsiz mahnını oxuya bilməsi və s.

Musiqi dinləmə fəaliyyəti uşaqlardan musiqi eşitmə və qavrama kimi qabiliyyətlərinin olmasını tələb edir.

Musiqili oyunlarda və rəqs edərkən uşaq diqqətlə musiqini dinləyir və ona uyğun hərəkətlər edir.

Frontal musiqi məşğələlərinin məzmununa və onun variantlarına diqqət yetirək. Uşaq bağçalarında ən çox tətbiq olunan musiqi məşğələsi fəaliyyəti belə bir ardıcıllıqla həyata keçirilir: məşğələnin əvvəlində musiqili-ritmik hərəkətlər, ondan sonra musiqi dinlənilməsi, daha sonra mahnı oxuma fəaliyyətləri həyata keçirilir, nəhayət uşaqlar musiqili oyunda, yaxud rəqsdə iştirak edirlər.

Musiqi məşğələlərinin əvvəlində ifa olunan marşları yaxşı olar ki, müəllim vaxt aşırı dəyişdirsin. Ona görə də musiqi rəhbərinin repertuarında 10-15 marş musiqisi nümunələrinin olması vacib şərtlərdəndir.

Uşaqların addımlamağı, qaçmağı, tullanmağı və s. kimi hərəkətlər etmələri üçün də müəllimin onlara müvafiq musiqi nümunələri səsləndirməlidir.

Musiqi məşğələlərinin əvvəlində uşaqlarda maraq və emosional əhval-ruhiyyə yaradılmalıdır ki, onlar musiqili-ritmik hərəkətlər etmək üçün eyni zamanda musiqini qavraya bilsinlər.

Bundan sonra uşaqlara yeni, yaxud onlara tanış olan musiqi nümunəsi təklif olunur. Bunun ardınca uşaqlarla mahnı öyrənmək mərhələsi həyata keçirilir. Yaxşı olar ki, bunun üçün müəllim bəstəkar O.Rəcəbovun "Nəğməli əlifba" məcmuəsindən istifadə etsin.

Vokal xor bacarıqlarının mənimsənilməsi uşaqlarda oxuya bilmək kimi vərdişin yarnamasına səbəb olur və bu məşğələlər yaradıcı xarakter daşıyır. Əgər uşaqlara yeni mahnı oxumaq təklif olunacaqsa, onda əvvəlcə musiqi dinlənilməsi mərhələsi üçün bu mahnıdan istifadə etmək məqsədə uyğundur. Bundan sonra müəllim qeyd olunan mahnını uşaqlara öyrədir və hərəkətləri həyata keçirilir.

Musiqi məşğələsi marş musiqisinin səslənməsi və uşaqların bunun ritminə uyğun hərəkət etməsi, addımlaması ilə başa çatır. Bu cür hərəkət uşaqlarda yaranmış həyəcanları minimuma endirir və onlar özlərinin əvvəlki sakit vəziyyətində olurlar.

Musiqi məşğələlərinin variantlılığı uşaqların musiqi tərbiyəsi prosesində böyük əhəmiyyətə malikdir. Bu variantlılıq aşağıdakı kimi ola bilər:

1. Musiqi məşğələsi musiqidinləmə ilə başlayır. Bu halda uşaqların məşğələyə gəlişi musiqisiz ola bilər. Onlar otağa daxil olaraq öz yerlərində otururlar. Burada əsas məsələ uşaqların musiqini qavramaları və öz diqqətlərini musiqiyə yönəltmələridir. Musiqi dinlənilməsindən sonra artıq öyrənilmiş mahnının oxuması başlayır. Bu məşğələdə uşaqlara vokal vərdişləri, musiqili-sensor və yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir. Məşğələnin sonunda musiqili-ritmik hərəkətlər, rəqsi hərəkətlər həyata keçirilir.

2. Musiqi məşğələsi uşaqların musiqinin müşayiəti ilə içəri marş tempində daxil olmaları ilə başlaya bilər. Bundan sonra müəllimin musiqili-ritmik hərəkətləri həyata keçirməsi məsləhət görülür və ardınca mahnı ifa edilir. Mahnını oxuduqdan sonra uşaqlara məlum olan musiqi nümunəsini dinləmək təklif edilir. Bu musiqidən oyunlarda, musiqili-obrazlarını yaradılmasında istifadə etmək olar. Əgər oyunun süjeti yoxdursa, onda onun xarakteri, quruluşu, ifadə vasitələri haqqında məlumatlar verilə bilər.

3. Musiqi məşğələlərinin strukturu yaradıcılıq vəzifələrilə əlaqələndirilməsinin çox böyük əhəmiyyəti vardır. Bu halda uşaq yaradıcılığı fəaliyyəti daha çox vaxt aparır.

Yaradıcılıq tapşırıqlarını müəllim uşaqlarda musiqili obrazların yaradılmasında, rəqs zamanı verə bilər.

Qeyd olunanlardan əalvə yuxarı və məktəbə hazırlıq qruplarında mövzulu məşğələlərdən də istifadə etmək məsləhətdir. Belə məşğələlər üçün müəllim mövzuya uyğun musiqi nümunələrindən istifadə etməlidir. Bu tip musiqi nümunələrindən uşaqların mahnı oxuma, musiqili-ritmik hərəkət, musiqi dinləmə, musiqili oyun, musiqi alətlərində çalmaq kimi fəaliyyətlərindən istifadə etmək məqsədə uyğundur.

Tutaq ki, uşaqlarla "Rəqs musiqisi" haqqında məşğələ keçirilməsi nəzərdə

tutulur. Onda musiqi müəllimi onlar üçün Azərbaycan xalq rəqs musiqisi nümunələrindən, rəqs xarakterli uşaq mahnılarından, yaxud bəstəkarlarımızın fortepiano pyeslərindən istifadə edə bilər.

Uşaqların ümumi və musiqi inkişafı üçün kompleks məşğələlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Məsələn, idmanla əlaqədar məşğələnin keçirilməsi nəzərdə tutulur. Bu mövzu ilə əlaqədar uşaqların bədii-nitq, səhnələşdirmə, musiqi və təsviri fəlaiyyətlərindən kompleks şəklində istifadə olunur.

Bu mövzu ilə əlaqədar uşaqlar bəstəkar O.Zülfüqarovun "İdman" mahnısını oxuyurlar, ona uyğun marş addımları, əl hərəkətləri edirlər, mahnının sözlərini musiqisiz və musiqi ilə oxuyurlar, yerlərində tullanırlar və s. Bu cür məşğələ uşaqların çox xoşlarına gəlir və onlar musiqinin təsiri altında müxtəlif fəaliyyət növlərindən şüurlu surətdə istifadə edirlər. Bundan əlavə müəllim bu mövzu ilə əlaqədar uşaqlara şəkil çəkmək tapşırığı da verə bilər.

Bununla əlaqədar müəllim müxtəlif mövzulardan, məsələn "Maşınım", "Tutu nənəm", "Pişiyim", "Sərçə" və s. kimi mövzulardan da istifadə edə bilər. Məlumdur ki, adları qeyd olunan mövzulara uyğun Azərbaycan xalq və bəstəkar mahnıları da vardır.

Qeyd etmək lazımdır ki, kompleks məşğələlərindən, uşaqların inkişafında və tərbiyəsində çox böyük əhəmiyyəti olmasına baxmayaraq, ondan ayda bir dəfə istifadə olunması daha məqsədə uyğundur. Digər vaxtlarda musiqi müəllimi fərdi, qrup məşğələlərindən ardıcıl olaraq istifadə etməlidir.

İlkin yaş dövrü qrupunda (həyatın birinci və ikinci dövründə) musiqi məşğələsinin əsasını musiqi dinlənilməsi, müəllimin mahnı oxuması və uşaq musiqi alətlərində (tütəkdə, metallofinda və s.) çalmaq təşkil edir. Müəllim artıq bu yaş dövründə uşaqları musiqi aləminin gözəlliyinə cəlb etməyə çalışır.

Bir yaşlı uşaqlarla müəllim fərdi məşğələlər keçirir və onda şən əhval-ruhiyyə yaradır, diqqətini musiqiyə cəlb edir. Uşaq həzin musiqi dinləyəndə, əgər müəllim gülümsəyirsə, o da gülümsəyir, şən, rəqs xarakterli musiqiyə öz hərəkətlərilə reaksiya verir.

İki yaşında uşaqlar adətən sərbəst olaraq hərəkət edirlər və musiqi müəllimi onlara ya fərdi, yaxud kiçik qruplarla məşğul olurlar. Bu qruplarda 2-4-6 uşaq ola bilər. Bu məşğələlərdə uşaqlar müəllimin mahnı oxumasını dinləyir, ayrı-ayrı səsləri oxuyur, bütün mahnını oxumağa çalışır, oyunlarda və rəqs fəaliyyətində musiqinin xarakterinə uyğun hərəkət fəaliyyətində iştirak edir.

Bu məşğələlərdə müəllim uşaqların hər bir hərəkətinə, seçidiyi musiqi nümunələrinin keyfiyyətinə diqqət yetirməli, onları müəyyən fəaliyyət növü ətrafında birləşməyi öyrədə bilməli, qrupda xoş əhval ruhiyyə yarada bilməlidir.

Birinci kiçik qrup (3 yaşlı uşaqlar) uşaqları artıq əvvəlki illərdə sadə musiqi fəaliyyəti növlərində iştirak etmək kimi təcrübəyə malik olmuşlar.

Artıq bu yaşda müəllim uşaqları kiçik qrup məşğələlərindən kollektiv

məşğələlərə keçirir. Bu məşğələlərdə uşaqlar musiqi dinləmə, mahnı oxuma, musiqi altında hərəkət etmə kimi fəaliyyətlərdə iştirak edirlər. Onlar artıq hamı üçün ümumi olan oyunlarda iştirak edirlər.

İkinci kiçik qrupda (4 yaşında) uşaqlar artıq əvvəlki illərdə qazandıqları bilik, bacarıq və vərdişləri bir qədər də təkmilləşdirirlər.

Artıq frontal musiqi məşğələlərində uşaqların fərdi və qrup tapşırıqları arasında əlaqələr yaradılmalıdır.

Yeni mahnı öyrədilməsi prosesində uşaqlarda birinin (ən istedadlısının) əvvəlcədən öyrədilməsinin xüsusi əhəmiyyəti vardır.

Uşaqlar öz yaşıdlarının mahnı oxumasından bu mahnını daha tez öyrənirlər və həm solist uşaq, həm də uşaqlar bundan məmnun olurlar. Beləliklə, fərdi yanaşma kimi pedaqoji prinsipdən də müəllim məşğələ prosesində isitfadə etmiş olur, uşaqlarda musiqiyə olan maraq artıq ki, bu da tərbiyə olunanın musiqi inkişafına səbəb olur.

ƏDƏBİYYAT

1. Гальперин П.Я., Запорожец А.В., Карпова С.Н. Актуальные проблемы возрастной психологии. М, 1978, стр. 58-59, 70-71.
2. Методика музыкального воспитания в детском саду. Учебник для пед. училищ. под ред. Н.А.Ветлугиной. М, 1982.
3. Поэзия и музыка. Сб.стат. и исследований (сост. Фрумин) Л.Музыка, 1973, 301 стр.
4. Алиев Ю.Б. Музыкальное развитие детей во внешкольных детских учреждениях. М. Музыка, 1970, 112 стр.
5. Восприятие музыки (сборник статьей под ред. В.Н.Максимова). М. изд. Музыка, 1980, 110 стр.
6. Sadıqov F.B. Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin nəzəriyyəsi və praktikası. Doktorluq dissertasiyası, B., 1992, 350 s.
7. Rəcəbov O.M. Uşaqlar və mahnılar. B., 1985, "İşıq" nəşriyyatı, səh. 127-128, 39-40, 28-29.
8. Rəcəbov O.M. Miriyeva U.M. Musiqi və mənəvi tərbiyə. B. "Maarif" nəşriyyatı, 1995, 162 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 10.05.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.05.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.